Ədalət .- 2025.- 28 noyabr (№45).-S.2.

***AQİL ABBAS***

# BAYRAQLARI BAYRAQ YAPAN ÜSTÜNDƏKİ QAN DEYİL!

**Yeddidən yetmiş yeddiyə hamının əzbər bildiyi, çox sevdyi bu misralar...**

***Bayraqları bayraq yapan üstündəki qandır,***
***Toprak - uğrunda ölən varsa, vatandır!***

**... qanımıza işləyib. Amma mənim fikrimcə, bayraqları bayraq yapan üstündəki qan deyil, ona qalsa SSRİ-nin də bayrağının üstündə qan vardı, Hitlerin də. Amma o qan o bayraqları bayraq yapa bilmədi, atdılar zibilliyə.**

**Düzdür, neofaşistlər hərdən bu bayrağı qaldırırlar, eləcə də bizim bəzi sarsaqlar da bu bayrağı qaldırır, amma xeyiri yoxdur, o bayraqlar çoxdan çezib.**



***Toprak - uğrunda ölən varsa, vatandır.***

**Bunu biz Birinci Qarabağ savaşında, eləcə də 44 günlük müharibədə torpaq uğrunda şəhid olanların timsalında gördük.**

**Bayraqları bayraq yapan əslində qan deyil, onu başının üstünə qaldıra bilən millətdir. Necə ki, işğal olunmuş bütün torpaqları azad edib, hər qarışında müqəddəs bayrağımızı ucaldan millət - Azərbaycan milləti!**

**1993-cü ildə azıb gedib çıxmışdım Amerikaya. Bir qrup jurnalist dostlarla getdik BMT-yə. Təşkilatın qarşısındakı dirəklərdə bayraqlar asılmışdı. Yaxınlaşıb Azərbaycan bayrağı asılan dirəyi qucaqlayıb sevincimdən ağladım.**

**Dostlar soruşdu:**

**- Dirəyi niyə qucaqlayıb ağlayırsan?**

**- Baxın da, bu dirəyin başında Azərbaycan bayrağı asılıb.**

**Belə bir misra var, gərək ki Hadinindi.**

***Yox millətimin imzası imzalar içində.***

**İndi böyük şövqlə deyə bilirik:**

***Var millətimin bayrağı bayraqlar içində.***

**Tanrı millətimizin bayrağını daha uca eləsin!**